# Məktəbəqədər təhsil müəssisələrində uşaqların sosiallaşmasının mühüm vasitələri

**Nərmin İlham qızı Zeynalova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** narminzeynalova97@gmail.com

**Rəyçilər:** p.ü.f.d., dos. P.M. Həsənova,
p.ü.f.d., dos. F.M. Allahverdiyeva

**Açar sözlər:** təhsil, uşaq, sosiallaşma, ailə, inkişaf, valideyn, tərbiyə
**Ключевые слова:** образование, дети, социализация, семья, развитие, воспитание, воспитание
**Key words:** education, children, socialization, family, development, parenting, upbringing

Ailə bir evdir ki, insanları birləşdirir, burada insani münasibətlərin, şəxsiyyətin ilkin sosiallaşmasının əsası qoyulur. Qohum olan insanlar ailədə daim münasibətlər prosesində olur və bu münasibətlərin vəziyyəti ailənin hər bir üzvünün temperament və xasiyyətlərindən asılıdır. Ailə birliyi o zaman möhkəm olur ki, burada maraqlar, zövqlər və tələbatlar ümumiliyi olsun. Ailənin normal olması təkcə hər iki valideyn və uşağın olması deyil, burada hökm sürən münasibətlərin səmimi, təmiz, məhəbbətlə dolu və qarşılıqlı anlaşma ilə olmasıdır.

Xoşbəxt ailənin sirri nədir? İlk növbədə əgər ərlə arvadda olan ümumi olan çox şeyin, ilk əvvəl isə ailənin qurulması haqqında ümumi prinsiplərin; ikincisi isə ailədə sayı ikidən az olmayan uşaqların, uşaqların dostlarının və ailənin dostlarının mövcudluğundadır. Ailədə uşağın normal inkişafı üçün ona normal şərait yaradılmalıdır. Bura ünsiyyət, məişət, fiziki sağlamlıq ətrafdakılara xoş münasibət, uşağın şəxsi müvəffəqiyyətləri aiddir. Valideynlərin uşaqlara biganəliyi onlarda tənhalıq hissi yaradır və uşaqlar kənarda özlərinə sirdaş axtarırlar, bəziləri isə mütaliə edir, tikiş tikir, idmanla məşğul olur dostlar axtarırlar. Ailədə, onun üzvləri arasında rollar mövcuddur. Ailə rolu - insanın cəmiyyətdəki ən mühüm rollarındandır. Bu ərarvadlıq, valideynlik (ata, ana), uşaq rolları (qız, oğlan, bacı, qardaş), nəsillərdir (baba, nənə). Ailədə rollar münasibəti bu və ya digər rolun yerinə yetirilməsi və ya yetirilməməsi münaqişələrə gətirib çıxarır. Ailənin ilk vəzifəsi orada yaşayan, böyüməkdə olan uşaqların doğru tərbiyə alması, və cəmiyyət üçün yararlı şəxsiyyət kimi yetişməsidir. Və bu tərbiyəyə uşağın çox kiçik yaşlarından başlamaq lazımdır.

Həyat müşahidələri göstərir ki, uşaq anadan olarkən fiziki cəhətdən anadan ayrılsa da, bioloji cəhətdən isə uzun illər ayrıla bilmirlər, əlaqəli olurlar. Uşaqlar körpəlik yaşının sonunda müəyyən mənada müstəqil hərəkət etsələr də, bioloji asılılıq və ziddiyyətlər arasında qalırlar. Onlarda "biz" anlayışı yaranır və böyüklərlə ünsiyyətə girirlər. Uşaqları anadan psixoloji sədd ayırır ki, bu da körpəlik dövründə baş verir. Bu isə uşaqlarda nəinki fiziki imkanların, o cümlədən psixoloji imkanların inkişafı ilə əlaqədardır. Belə ki, uşaqlarda özünüşüurun inkişaf əlamətləri inkişaf etməyə başlayır. Körpə yaşlı uşaqların psixologiyası ilə məşğul olan məşhur rus psixoloqu M.İ.Lisina uşaqların həmyaşıdları ilə ünsiyyətin 4 xüsusiyyətini göstərmişdir.

1.Uşağın başqa adamlara maraq göstərməsi.
2.Həmin adamlara qarşı emosional münasibətin yaranması.
3.Başqalarının onların özünə diqqətinin cəlb edilməsi.
4.Qarşılıqlı təsirin yaranması (sözlə, işarələrlə qarşılıqlı təsir prosesi yaranır).

Yeri gəlmişkən, qeyd etmək olar ki, V.S. Qoliquzovanın tədqiqatlarında yeniyetmə yaşında uşaqların davranışında bir sıra cəhətlər diqqəti cəlb edir. Bu bir sıra meyarlarla müəyyən edilir:

1-ci meyar ondan ibarətdir ki, həmyaşıdlarına maraq və diqqət yaranır. Uşaqların bir-biri ilə maraqlanması diqqəti cəlb edir.

2-ci meyar emosional ünsiyyətin yaranmasıdır (həmyaşıdlarına qarşı)

3-cü meyar özlərinin başqalarına və başqalarının özlərinə cəlb etməsi prosesi yaranır

4-cü meyar yüksək həssaslıq və qarşılıqlı təsir əsasında yaranır

Beləliklə, demək olar ki, uşaqların bir-biri ilə ünsiyyəti tələbata çevrilir. Müşahidələr göstərir ki, erkən yaşlıların həmyaşıdları ilə ünsiyyətə daxil olmasının bir sıra xüsusiyyətləri mövcuddur. Bu xüsusiyyətlər onların davranışı, hərəkətləri ilə bağlıdır.

1.Həmyaşıdları ilə ünsiyyətdə obyektin maraqlı olması. Obyekt maraqlı olduğundan uşaqlar ona yaxınlaşır və ünsiyyət qurmağa çalışırlar.

2.Oyuncaqlarla əlaqədardır. Uşaqlar oyuncaqlarla özlərinə xas davranırlar

3.Uşaqlar həmyaşıdları ilə onlara xas hərəkət edirlər

4.Həmyaşıdları ilə hərəkəti çox sıx olur.

Uşaqların həmyaşıdları ilə, eləcə də özündən böyüklərlə qarşılıqlı münasibəti əsas fəaliyyət prosesinə çevrilir. Bu xüsusiyyətin icra olunmasında iki rol mövcuddur.

1.Əşyəvi fəaliyyət prosesində iştirakını təmin etmək vacibdir. Belə ki, uşaqlar oyun fəaliyyətində müxtəlif tapşırıqların icrası prosesində iştirak edirlər.

2.Subyektiv qarşılıqlı təsirin təşkilidir. Burada uşaqların şəxsi keyfiyyətləri önə keçir.

Məktəbəqədər yaşlılar həm də bağça yaşlılar adlanaraq yeni mühitə daxil olurlar. Bu ana qədər onların sosial mühiti daimi olan insanlar ilə əhatə olunmuşdu. Amma indi bu mühitə yeni insanlar daxil olmağa başlayır. Uşaq yeni sosial davranışlar və münasibətlər çərçivəsində fərqli statusa sahib olur. Uşaqda rol keçidi baş verir. Ailə və yaşlıların dünyası ilə qurulan münasibətlər onun ünsiyyət çevrəsindən kənarda olur. O öz yaşıdları ilə öz yeni əhatəsini müəyyənləşdirməyə başlayır. Böyüklərin köməyi olmadan münasibətlər qurmağa başlayır. Eyni zamanda onun tanışları siyahısına yeni peşə sahibləri daxil olmağa başlayır (müəllim, bağça müdiri, həkim, satıcılar, sürücülər, yol polisi və s.). Həmçinin uşağın həyatında yeni fəaliyyət növü - oyun həlledici rol oynayır. Bu prosesdə uşaq oyun qaydalarına tabe olmaqla yanaşı, həm də oyunu başqa uşaqlarla həyata keçirməyə başlayır. Qaydaları pozduğu üçün cəzalandırıla və ya düz oynadığına üçün mükafatlandırıla bilər. Oyun prosesində uşaq oyunun məqsədini, süjetini, oyunun vasitələrini və oyun davranışlarını mənimsəmiş olur. Oyunun süjetini mənimsəmə prosesinin olması uşağı planlı fəaliyyətə sövq edir. Məsələn, uşaqlar "evcik oyunu" oynayarkən yemək bişirir, çörək kəsir, süfrə bəzəyir, uşaq bələyirlər. Bütün bunları böyükləri təqlid edərək edirlər. Ona görə uşaq oyunları ilkin olaraq təqlidlər vasitəsilə icra edilir. Oyun fəaliyyəti iki mərhələyə bölünür:

3-5 yaş arası mərhələdə uşaqlar real insanları və onların davranışlarını təqlid edirlər. Əsasən əşyavi oyun aparırlar.

5-7 yaş arası isə daha çox emosional tərəfləri əks etdirir və sosial münasibətləri ifadə edirlər.

Bu dövrdə uşaqların diqqəti, qavrayışı, hafizəsi, təfəkkürü və təxəyyülü inkişaf edir. Yeni bilik və vərdişlərə yiyələnirlər. İnduktiv və deduktiv düşüncənin sadə formaları yaranır. Ətrafda baş verən hadisələr onları daha çox maraqlandırır və onlar yaşlılara daha çox suallar verməyə başlayır bu suallara isə onlar daha çox bağçada, məktəbə hazırlıq kurslarında cavab tapırlar. Onlarda emosional sahənin strukturu dəyişir, motivasiya sahəsi fəallaşır. Uşaqlar şəkil

çəkir, gil ilə işləyir, kiçik əməklə məşğul olaraq (gül əkir, gülləri sulayır, heyvanları bəsləyirlər və s. ilə böyüklərə yardım edirlər) yaşlılara kömək edirlər. Uşaqlar bu yaş qrupunda fərqli sosial davranış növləri ilə qarşılaşırlar: tərif, cəzalandırma, mükafatlandırma, qadağa, tapşırıq və s.

Məktəbəqədər yaşlılar həm fiziki, həm də psixi cəhətdən körpə yaşlılardan kəskin surətdə fərqlənirlər. Məktəbəqədər yaş dövründə aparıcı fəaliyyət növü kimi oyun fəaliyyəti xarakterizə olunur. Məşhur psixoloqların mövqeyinə görə, oyun uşaqların fiziki, sosial və intellektual inkişafında həlledici rol oynayır. Oyunun xarakteri, təbiəti məktəbəqədər yaşlıların psixi aləminə dəyişdirici təsir göstərir. Rus alimi D.B.Elkonin, son dövrlərdə isə V.S.Muxinanın, L.F.Obuxovanın tədqiqatları məktəbəqədər yaşlıların rollu oyunlarının psixoloji xüsusiyyətlərini öyrənməyə imkan vermişdir. Rollu oyunlarda əsas mərkəzi rol uşaqların öz "Mən"ini qabarıq şəkildə ifadə etməsidir. «Mən həkiməm", "Men müəlliməm" və s. adları ifadə etməklə özlərini böyüklərin rolunda görürlər.

Məktəbəqədər yaş dövrü uşağın həm fiziki, həm psixoloji, həm də şəxsiyyət sahəsində inkişafının keyfiyyətcə dönüş dövrüdür. Bu dövrdə uşağın fiziki inkişafı birinci növbədə diqqəti cəlb edir. 3-6 yaşlı uşağın boyunun, çəkisinin artmasında nəzərə çarpacaq dəyişiklik baş verir. Buna baxmayaraq, həmin dövrdə uşağın əzələ və sümük sistemi xeyli inkişaf etmiş olsa da onun əl və ayaq əzələlərində hələ sümüklənməmiş qiğirdaqlar qalır. Uşağın skeleti əsasən qiğirdaq toxumlardan ibarət olur. Ona görə də lazımı tələblərə əməl olmadıqda uşağın qaməti düzgün inkişaf etmir. Bununla yanaşı olaraq nitqin, böyüklərlə və həmyaşıdları ilə ünsiyyətin və müxtəlif fəaliyyət növlərinə cəlb olunmasının təsiri altında uşaqda yeni keyfiyyət dəyişmələri baş verir. Bütün bunlar uşağın sosial şəraitdə və həyatın tələbələrinə uyğunlaşmasına imkan verir.

Məktəbəqədər dövr uşağın fəaliyyətin subyekti kimi formalaşmasının ilkin mərhələsi kimi özünü göstərir. Məqsədəyönəlişliyin əsası qoyulur. Böyüklərin qiymətləndirilməsi və nəzarətinin təsiri altında bağça yaşının sonunda uşaqlar öz hərəkət və fəaliyyətindəki qüsurları hiss etməyə başlayırlar. Bununla əlaqədar təqlid obyektləri dəqiqləşməyə başlayır. Məktəbəqədər yaş dövründə həm ümumi həm də xüsusi qabiliyyətlərin formalaşması imkanları yaranır və özünü göstərməyə başlayır. Bağça yaşı dövründə oyun uşaqların əsas fəaliyyəti olur. Bu yaş dövründə uşaqlar öz vaxtlarının çoxunu oyunda keçirirlər. Adətən, məktəbəqədər yaş dövrü 3 yarımdövrə ayrılır: kiçik bağça yaşı dövrü (3-4 yaş), orta bağça yaşı dövrü (4-5yaş) və böyük bağça yaşı dövrü (5-6yaş).

Kiçik bağça yaşlı uşaqlar, adətən, hələ təklikdə oynayırlar. Əşyavi və quraşdırma oyunlarında onlarda qavrayış, hafizə, təfəkkür, təxəyyül və hərəki qabiliyyətlər inkişaf edir. Tədricən orta bağça yaş dövründə uşaqlar birgə oyuna keçməyə başlayırlar, oyunlarda daha çox uşaq iştirak edir, üç-altı yaş ərzində uşaq oyunları əsyavi-monipuluativ və simvolik xarakterdən süjetli-rollu qaydalı oyunlara qədər inkişaf yolu keçir. Bütün bunlar uşağın həyatında mühüm rol oynamaqla, onun tələbatını ödəməklə yanaşı yaşlılarla ünsiyyət saxlamaq, həyatı başa düşmək, ətrafdakıları təqlid etmək, bu yolla bir növ gələcək həyata hazırlaşmaq işində mühüm vasitəyə çevrilir. Oyun fəaliyyəti uşağın psixi inkişafında əsaslı dəyişikliklərə gətirib çıxarır. Oyun şəraitində və onun köməyi ilə uşaqlarda diqqət, qavrayış, xüsusilə müşahidəçilik, hafizə, təfəkkür və təxəyyülün inkişafı üçün əlverişli şərait yaranmış olur. Bununla yanaşı olaraq didaktik oyunlardan istifadə edilməsi uşaqlarda nitqin inkişafı, nitq qüsurlarının aradan qaldırılması işində də əsaslı rol oynayır. Orta və böyük bağça yaşı dövründə də uşaqlar rollu qaydalı oyunlardan daha çox istifadə edirlər. Bu dövrdə həmin oyunlar özlərinin mövzularına, qaydalarının müxtəlifliyinə görə kiçik bağça yaşı dövründə istifadə olunan oyun-

lardan fərqlənirlər. Burada kiçik bağça yaşı dövründən fərqli olaraq oyunda təbii şəkildə istifadə olunan əşyalar şərti olaraq dəyişdirilir, nəticədə simvolik oyun xarakteri daşıyır. Rollu – qaydalı oyunlardan istifadə edilməsi uşaqlarda iradənin inkişafına güclü təsir göstərir. Adi şəraitdə bir yerdə dura bilməyən uşaq bu cür oyunları zamanı öz rolunu axıra qədər yerinə yetirməyə, qaydaya əməl etməyə məcbur olur. Oyun prosesində uşaqlar qarşılıqlı münasibətlərin həyata keçirilməsinə əməl etməyə çalışırlar. Rollu oyun prosesində ilk dəfə olaraq uşaqda liderlik özünü göstərir, təşkilatçılıq, bacarıq və vərdişləri inkişaf etməyə başlayır. Oyun eyni zamanda uşaqlarda bir sıra qabiliyyətlərin aşkara çıxmasına imkan verir. Bütün bunlarla yanaşı olaraq uşaqlar sadə əmək tapşırıqlarını icra edərkən də çox vaxt onlara oyun xarakteri verir və bu yolla bəzi sadə əmək bacarıqlarına da yiyələnirlər.

İdrak prosesində və nitqin inkişafı məktəbəqədər yaş dövründə uşaqlarda idrak prosesləri və nitqin inkişafında əsaslı dəyişiklik baş verir. Məktəbəqədər dövrdə uşaqların qavrayışının ixtiyarı növünün inkişafı üçün şərait yaranır. Burada oyunun rolu böyükdür. Uşaqlar cismin formasını, ölçüsünü, tutduğu yeri qavramağa çalışırlar, bu oyunda məkan qavrayışının inkişafı kimi özünü göstərir. Məktəbəqədər yaşlı uşaqlar ilk vaxtlar ən çox formanı ayırmaqla onları qavramağa cəhd göstərirlər. Eyni zamanda obyektlərin böyüklüyünü qavramağa bacarığı da özünü göstərir. Bağça yaşının sonunda uşaqlar onları maraqlandıran obyektlərin xassələrini daha tez müəyyənləşdirmək, bir əşyanın başqasından fərqləndirmək, onlar arasında mövcud olan əlaqə və münasibətlətləri aşkara çıxarmaq imkanı əldə edirlər. Nəticədə zahiri perseptiv işlər əqli işlərə və çevrilməyə başlayır. Psixoloqlar belə qənaətə gəlmişlər ki, qavrayışla bağlı olan qabiliyyətlərin əsasını perseptiv işlər təşkil edir. Bu cür qabiliyyətlərin keyfiyyəti uşağın xüsusi perseptiv etalon sistemini mənimsəməsindən asılıdır. Qavrayış zamanı bu cür etalonlar həndəsi fiqurlar, rənglər və s. ola bilər. Böyük bağça yaşı dövründə uşaqlarda ətraf aləmin qavranılması genişlənir və dərinləşir. Bu dövrdə qavrayış uşaqlara yaşlıların həyatına qoşulmağa, nüfuz etməyə imkan verir. Bununla bərabər böyüklərlə ünsiyyət qavrayışın məzmununu zənginləşdirir.

Tədricən bağça yaşı dövründə ixtiyarı qavrayış inkişaf edir, müşahidə və müşahidəçilik özünü göstərməyə başlayır. Böyüklər, tərbiyəçilər uşaqların qarşısına məqsəd qoyur , onların ətraf aləmdəki daha mühüm cəhətləri qavramağa yönəldir, onlara müşahidə etməyi öyrədirlər. Məhz buna görə böyük bağça yaşlı uşaqlar öz qavrayışlarını daha uzun müddət idarə edə bilirlər.

Bağça yaşı dövründə uşaqlarda qavrayışın, müşahidəçiliyin inkişafında oyun aparıcısı fəaliyyət növü kimi xüsusi əhəmiyyət kəsb edir. Bu cür oyunlar içərisində didaktik oyunlar xüsusi yer tutur. Bu dövrdə uşaqlarda qavrayışın inkişafında rəsm yapma, quraşdırma da mühüm rol oynayır. Uşaq nəyisə çəkmək nəyinsə fiqurunu yapmaq üçün birinci növbədə onu diqqətlə müşahidə etməli, onun konturunu, rəngini müəyyənləşdirməli olur . Bütün bunlar uşağı müşahidə etməyə təhrik edir, ixtiyarı qavrayışın inkişafına təkan verir. Bağça yaşı dövründə qavrayışla yanaşı olaraq diqqətin təkmilləşməsi prosesi də baş verir. Bu yaş dövrünün əvvəlində uşaqlarda diqqəti zahirən cəlbedici cisimlər cəlb edir. Bu dövrdə hələ uşaqda qavradığı obyektə maraq üstünlük təşkil edir. Başqa sözlə, diqqət qeyri-ixtiyarı xarakter daşıyır.

Bağça yaşının sonunda diqqət öz inkişafının daha yüksək səviyyəsinə çatır. Böyük bağça yaşlı uşaqlarda diqqətin inkişafı yeni maraqların meydana gəlməsi, dünya görüşünün genişlənməsi, uşağın ailə həyatında və bağçada yeni şəraitə daxil olması, yeni fəaliyyət növlərinə yiyələnməsi ilə sıx bağlı olur. Böyük bağça yaşlı uşaq gerçəkliyin əvvəllər onu cəlb etməyən cəhətlərinə diqqət yetirməyə başlayır. Uşağın ünsiyyət sahəsinin genişlənməsi marağın zənginləşməsi ilk növbədə qeyri-ixtiyarı diqqətin daha yüksək inkişaf səviyyəsinə qalxmasına sə-

bəb olur.

Uşaqların tərbiyəsində müxtəlif sosial təsisatların təsiri nəzərə alınmalıdır. Onların arasında uşaq birliklərinin xüsusi yeri vardır. Onun perspektiv məqsədi öz qüvvə və imkanlarına əsaslanmaqla uşaqlara kömək etmək, uşaq maraqlarının təmin olunmasındakı boşluğu doldurmaqdır.

Hər hansı birliyin məqsədini iki aspektdə nəzərdən keçirmək olar:

- Uşaqların öz qarşılarına qoyduğu məqsəd
- Uşaq birliklərinin işində iştirak edən böyüklərin qarşıya qoyduğu məqsəd

Uşaq birlikləri uşaqların maraqlarını, hüquqlarını, ləyaqətlərini qorumaqla, müdafiə funksiyasını da yerinə yetirir. Uşaq birlikləri fəaliyyətinin məzmununa, müddətinə və idarəetmə formalarına görə fərqlənirlər. Məzmununa görə fərqlənənlərə əmək, asudə vaxt, ictimai-siyasi, dini, vətənpərvərlik, idrak birliklərini misal göstərmək mümkündür. Mövcudluq müddətinə görə birliklər daimi, müvəqqəti və situativ olur. İdarəetmə xarakterinə görə qeyri-formal uşaq birliklərini, klub birliklərini və uşaq təşkilatlarını fərqləndirmək olar. Uşaqlar birlikləri maraqlarına görə seçmək, bir birlikdən digərinə keçmək, ürəklərinə yatan fəaliyyət proqramını həyata keçirmək, həmçinin proqramların icra müddəti və sürətini planlaşdırmaq imkanına malik olurlar.

Bu gün uşaq birliklərində uşaqların sosial-iqtisadi fəallığının tərbiyə edilməsi məsələsi xüsusi aktuallıq kəsb edir. Bu proses aşağıdakıların həyata keçirilməsini təmin edir:

— Uşaqların və yaşlıların sosial-iqtisadi münasibətlərinin qarşılıqlı təsiri

— Əldə edilmiş birliklərin praktik fəaliyyətə tətbiqi.

Uşaqların tərbiyəsində müvəqqəti birliklərin də böyük əhəmiyyəti vardır. Beləliklə, müxtəlif uşaq birlikləri uşağın daxili aləminin təşəkkülünə, onlarda ümumi mədəniyyətin, yeni dəyərlərin formalaşmasına imkan yaradır.

**Məqalənin aktuallığı.** Hamımıza məlumdur ki, uşaqların sosiallaşmasında məktəbəqədər tərbiyə müəssisələri mühüm rol oynayır. Eyni zamanda bu müəssisələrdə sosiallaşma prosesi üçün böyük əhəmiyyət kəsb edən tərbiyə vasitələrinin də müstəsna təsirini qeyd etməyə bilmərik. Məqalə də belə bir mövzuya həsr edildiyi üçün onu aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə uşağın normal inkişafı üçün ailənin əvəzsiz rolu qeyd edilməklə yanaşı, məktəbəqədər təhsil müəssisələrində onların sosiallaşmasının mühüm vasitələri sadalanır, ayrı-ayrı yaş dövrlərində yerinə yetirilməsi zəruri hesab olunan xüsusiyyətlər nəzərdən keçirilir. Eyni zamanda, bu sahədə xarici ölkə alimlərinin tədqiqat nəticələrindən konkret nümunələr göstərilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçiləri istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Abbasov A.N., Əlizadə Ə. H. Pedaqogika. Bakı, 2001.
2. Allahverdiyeva F., Tağıyeva S. Pedaqogika. Bakı, 2018.
3. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Bakı, 2010.
4. Həmzəyev M.Ə. Pedaqoji psixologiya. Bakı, 2000.
5. Həsənov A. Məktəbəqədər pedaqogika. Bakı, 2000.

**Н.И. Зейналова**

## Важные средства социализации детей в дошкольных учреждениях

## Резюме

Мы знаем, что дошкольные учреждения играют важную роль в социализации детей. В то же время нельзя не отметить исключительный эффект образовательных инструментов, имеющих большое значение для процесса социализации в этих учреждениях.

Помимо подчеркивания неоценимой роли семьи для нормального развития ребенка, в статье перечислены важные средства их социализации в дошкольном образовании, а также рассмотрены особенности, которые необходимо реализовать в разном возрасте. При этом приведены конкретные примеры из результатов исследований зарубежных ученых в этой области.

**N.I. Zeynalova**

## Important means of socialization of children in preschool institutions

## Summary

We know that preschools play an important role in the socialization of children. At the same time, we cannot fail to note the exceptional effect of educational tools, which are of great importance for the socialization process in these institutions.

In addition to emphasizing the invaluable role of the family for the normal development of the child, the article lists the important means of their socialization in preschool education, and considers the features that need to be implemented at different ages. At the same time, concrete examples from the research results of foreign scientists in this field are shown.

**Redaksiyaya daxil olub:** 24.11.2020